Xalq qəzeti.-2023.- 11 oktyabr.- S. 9

# Ulu öndərin azad mediaya dəstəyi

**Azərbaycan Dillər Universitetində (ADU) regionşünaslıq kafedrası və Azərbaycanşünaslıq Mərkəzinin təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan mediası" adlı dəyirmi masa keçirilib.**



Tədbirdə "Ulduz" jurnalının baş redaktoru, Prezident təqaüdçüsü, Əməkdar jurnalist, şair–publisist Qulu Ağsəs medianın, xüsusilə, mətbuatın inkişafında Ulu öndərin əvəzsiz rolundan bəhs edib. Qonaq bildirib ki, 90-cı illərin əvvəllərində respublikada yaranmış gərgin və xaotik vəziyyət Azərbaycan mətbuatından da yan keçməmişdi. Məhz ümummilli lider Heydər Əliyevin gərgin səyləri nəticəsində Azərbaycan mediası dövlət qayğısı ilə əhatə olunub və mətbuatımız dinamik inkişaf mərhələsinə qədəm qoyub. Qəzetlərin nəşriyyata borcları silinib, senzura ləğv olunub və s.

"Ulduz" jurnalının nəşr şöbəsinin müdiri, yazar, publisist Taleh Mansur çıxışında qeyd edib ki, müasir dövrdə medianın ən ümdə vəzifələrindən biri xarici dilləri bilən gənc qələm sahiblərinin yaradıcı potensialından səmərəli istifadə etmək, onların analitik yazılarının beynəlxalq arenaya çıxarılması üçün yollar aramaqdır. Hazırkı informasiya müharibəsi şəraitində bunun böyük əhəmiyyəti var.

Tədbirdə Ulu öndərin jurnalistlərlə görüşləri haqqında videoçarx nümayiş olunub. Sonda tələbələrə "Ulduz" jurnalının müxtəlif nömrələri hədiyyə edilib.

***XQ***